**“Zəfərdən zəfərə, Azərbaycan!” adlı respublika elmi-praktik konfransının materialları. Dövlət Təhlükəsizlik Xidmətinin Heydər Əliyev adına Akademiyası. Bakı, 2 noyabr, 2022-ci il.**

**Əlizadə Nuridə Elton qızı**
**Ədliyyə Akademiyasının baş məsləhətçisi,**
**I dərəcəli ədliyyə qulluqçusu,**
**Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı**
**alizadenuride91@gmail.com**

# Beynəlxalq sənədlərdə toxunulmazlıq hüququnun təsbiti

Uzun zamandır ki, insan hüquqları və azadlıqları ölkələrin daxili siyasətindən çıxaraq beynəlxalq məsələyə çevrilmişdir. Əsrlər boyu insanların uğrunda mübarizə apardığı ən vacib hüquqlardan biri də toxunulmazlıq hüququ olmuşdur. Toxunulmazlıq dedikdə, biz bir insanın şəxsiyyət kimi var olma səbəbini başa düşə bilərik. Hər bir insan yaşadığı dövlətdə toxunulmaz olmaq istəyər ki, rahat həyat sürə bilsin. Hüquq və azadlıqlar içərisində toxunulmazlıq anlayışı çox geniş məna daşıyan bir anlamdır. Burada insanın şəxsi toxunulmazlığından tutmuş, onun yazışmalarının, əşyalarının, mənzilinin və s. toxunulmazlığını əhatə olunur.

Toxunulmazlıq hüququ Azərbaycan Respublikasının (AR) Konstitusiyasının 32 və 33-cü maddələrilə əhatə olunmuşdur. Belə ki, şəxsi toxunulmazlıq hüququ adlanan Konstitusiyanın 32-ci maddəsi hər kəsin şəxsi toxunulmazlıq hüququ olduğunu bəyan edərək bu hüququn məzmununu belə açıqlayır: “Hər kəsin şəxsi və ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağandır”. Şəxsi həyat dedikdə, hər bir insana məxsus olan şəxsi sirr, ailə sirri, həmçinin onun haqqında məlumatlar, şəxsin yazışmaları, telefon danışıqları, poçt, teleqraf və digər rabitə vasitəsilə ötürülən məlumatları, şəxsə məxsus foto və ya video çəkilişləri başa düşülür. Həmçinin Konstitusiyanın 33-cü maddəsinə əsasən, hər kəsin mənzil toxunulmazlığı hüququ vardır və qanunla müəyyən edilmiş hallar və ya məhkəmə qərarı istisna olmaqla, mənzildə yaşayanların iradəsi ziddinə heç kəs mənzilə daxil ola bilməz.

Hal-hazırki dövrdə şəxsi toxunulmazlıq hüququ daha çox təhlükə altında qalan bir hüquqdur. Belə ki, informasiya kommunikasiyaları vasitəsilə çox asanlıqla hər hansı bir

şəxsə aid olan məlumatlar aşkar olunaraq, müasir internet dövründə yüksək surətlə yayıla bilir. Bu kimi halların qarşısını almaq üçün AR Cinayət Məcəlləsinin 155, 156 və 157-ci maddələrində müvafiq olaraq yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrinin, şəxsi həyatın toxunulmazlığının və mənzil toxunulmazlığının pozulması cinayət kimi nəzərdə tutulmuşdur. Belə ki, sözügedən cinayətləri törətməyə görə əvvəllər nəzərdə tutulmuş sanksiyaların həddi artırılmışdır. Hal-hazırda şəxsi və ailə həyatının sirri olan məlumatların, belə məlumatları əks etdirən sənədlərin, video və foto çəkilişi materiallarının, səs yazılarının yayılması, habelə satılması və ya başqasına verilməsi, qanunsuz toplanılması, həmçinin mənzil toxunulmazlığının pozulması min manatdan iki min manatadək miqdarda cərimə və ya iki yüz qırx saatdan dörd yüz səksən saatadək ictimai işlər və ya bir ilədək müddətə islah işləri ilə cəzalandırılır. Yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrini pozmağa görə isə min manatdan iki min manatadək miqdarda cərimə və ya bir ilədək müddətə islah işləri cəzası tətbiq olunur.

Şəxsin şəxsi həyatının, yazışma, telefon danışıqları, poçt teleqraf məlumatlarının, o cümlədən mənzilinin toxunulmazlığı ölkələrin daxili qanunvericiliyi ilə yanaşı beynəlxalq müstəvidə əsaslı şəkildə mühafizə olunur. Belə ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, Avropa İnsan Hüquqları Konvensiyası, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt, Əlillərin hüquqlarının müdafiəsi barədə Pakt və digər beynəlxalq əhəmiyyətli sənədlərdə şəxsin toxunulmazlıq hüququ öz əksini tapmışdır. Beynəlxalq sənədlərdə şəxsi və ailə həyatının toxunulmazlığı, yazışma, telefon danışıqları, poçt, teleqraf və digər məlumatların sirrinin qorunması və mənzil toxunulmazlığı hüququ əsasən eyni maddədə nəzərdə tutulmuşdur. Yəni, beynəlxalq sənədlər şəxsin toxunulmazlıq hüququ altında onun şəxsi və ailə həyatını, kommunikasiya sirrini və mənzilinin toxunulmazlığını mühafizə edir.

Avropa İnsan hüquqları Konvensiyasında sözügedən hüquqlar "Şəxsi və ailə həyatına hörmət hüququ" adlnanan 8-ci maddə ilə mühafizə olunur. Sözügedən maddədə deyilir: "Hər kəs öz şəxsi və ailə həyatına, mənzilinə və yazışma sirrinə hörmət hüququna malikdir". Avropa Məhkəməsinin praktikasına nəzər saldıqda görünür ki, Məhkəmə 8-ci maddənin tətbiq dairəsini geniş şəkildə götürür. Sözügedən hüququn həyata keçirilməsinə müdaxiləyə yalnız o hallarda yol verilir ki, bu milli təhlükəsizlik, ictima asayiş və ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaş və ya cinayətin qarşısını almaq üçün, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik

cəmiyyətdə zəruri olan hallarda olsun. Bu zaman yalnız dövlət hakimiyyəti orqanları tərəfindən hüquq məhdudlaşdırıla bilər.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 12-ci maddəsində qeyd olunur ki, "Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla müdaxilə, evinin toxunulmazlığına, gizli məktublaşmalarına, şərəf və nüfuzuna özbaşınalıqla qəsd edilə bilməz. Hər bir insan bu cür müdaxilələrdən və ya belə qəsdlərdən qanunla müdafiə olunmaq hüququna malikdir". Bəyannamənin müddəalarına beynəlxalq adət hüququ əsasında hüquqi cəhətdən məcburi öhdəliklər kimi istinad edilir. İnsan hüquqları haqqında Beynəlxalq Billin 3-cü maddəsinə əsasən, hər bir insan şəxsi toxunulmazlıq hüququna malikdir. Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın 17-ci maddəsində isə qeyd edilir: "Heç kimin şəxsi və ailə həyatına özbaşınalıqla və yaxud qeyri-qanuni müdaxilə, onun evinin toxunulmazlığına və məktublaşmalarının gizliliyinə özbaşınalıqla və ya qeyri-qanuni qəsd və ya onun ləyaqəti və nüfuzuna qeyri-qanuni qəsd edilə bilməz". Əlillərin hüquqları haqqında Konvensiyanın 22-ci maddəsində deyilir: "Yaşayış yerindən və mənzil şəraitindən asılı olmayaraq, heç bir əlil onun şəxsi həyatının, ailəsinin, mənzilinin və ya yazışmalarının və digər ünsiyyət formalarının toxunulmazlığına özbaşına və ya qanunsuz qəsd olunmasına, yaxud onun şərəf və ləyaqətinə xələl gətirilməsinə məruz qalmamalıdır". Uşaq hüquqları haqqında Konvensiyanın 16-cı maddəsinə əsasən, "Heç bir uşaq onun şəxsi həyat, ailə həyatı, mənzil toxunulmazlığı və ya yazışma sirri hüququnun həyata keçirilməsinə özbaşına və ya qanunsuz müdaxilə və ya şərəf və nüfuzuna qanunsuz qəsd obyekti ola bilməz".

Bəs beynəlxalq konvensiyalarda nəzərdə tutulmuş hüquqlar pozulduğu halda nə etmək lazımdır? Hər bir konvensiyanın nəzarəti bir quruma tapşırılmışdır və həmin qurum dövlətlər tərəfindən beynəlxalq sənədlərə riayət olunmasına nəzarət edir. Bu qurum əsasən komitələrdir. Beynəlxalq sənədləri ratifikasiya etmiş ölkələri nə vadar edir ki, öz öhdəliklərini yerinə yetirsinlər? Əsasən məhkəmələr, ombudsman aparatı, insan hüquqlarının müdafiəsi üzrə komitələr və s. tərəfindən müdafiə mexanizmlərinin işləkliyi təmin olunur. Məsələn, Avropa Konvensiyasında nəzərdə tutulmuş şəxsi və ailə həyatına hörmət hüququnun pozulması ilə bağlı vətəndaş bütün dövlətdaxili müdafiə vasitələrini keçdikdən sonra 6 ay ərzində Avropa İnsan Hüquqları Məhkəməsinə şikayət edə bilər. Avropa Məhkəməsinin yekun qərarına dövlətlər tərəfindən nə dərəcədə riayət olunması üçün hüquqi mühafizə proseduru tam olaraq mövcud deyil. Həmçinin Beynəlxalq Ədalət Məhkəməsinin üzv dövlətlər barəsində verdiyi qərarlar fakültativ hesab olunur, yəni məcburi xarakter daşımır. Lakin, beynəlxalq konvensiyalara üzv olmuş dövlətlər öz beynəlxalq nüfuzunun zədələnməməsi üçün orada nəzərdə tutulmuş

insan hüquqlarının pozulması ilə bağlı məhkəmə qərarlarını icra etməyi üstün tuturlar. Həmçinin iştirakçı dövlətlər konvensiyalarda nəzərdə tutulmuş öhdəliklərin həyata keçirilməsi üçün gördüyü tədbirlər barədə müvafiq komitələrə məruzə təqdim edirlər.

Konstitusiyamıza əsasən, AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələr AR qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Həmçinin, əgər AR-nın qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Konstitusiya və referendumla qəbul edilmiş aktlar istisna olmaqla) AR-nın tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir.

Hal-hazırda bütün demokrtatik ölkələrin konstitusiyalarında toxunulmazlıq hüququ nəzərdə tutulub və maddələrin mətni cüzi fərqlərlə də olsa oxşardır. Maddələrə ümumən nəzər yetirdikdə görürük ki, toxunulmazlıq hüququnun pozula biləcəyi hallara insanın həyat və sağlamlığının, mülkiyyətin, ictimai qaydanın və ictimai əxlaqın qorunması məqsədləri aiddir. Hər bir halda toxunulmazlıq hüququnun təxirəsalınmaz hallarda məhdudlaşdırılması məhkəmənin və ya səlahiyyətli orqanın qərarı ilə nəzərdə tutulur.

“Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinin bağlanması, icrası və ləğv edilməsi qaydaları” haqqında Qanuna əsasən, AR beynəlxalq hüquq normalarına uyğun olaraq AR-nın beynəlxalq müqavilələrinə dönmədən əməl etməlidir. Beynəlxalq müqavilələrinin yerinə yetirilməsinin təmin edilməsini AR Prezidenti həyata keçirir. Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının beynəlxalq müqavilələri üzrə öhdəliklərin həm AR, həm də həmin müqavilələrin digər iştirakçıları tərəfindən yerinə yetirilməsi barədə AR Prezidentinə müntəzəm məlumat verir. AR-nın beynəlxalq müqavilələrinin icrası üzərində ümumi müşahidəni isə Xarici İşlər Nazirliyi həyata keçirir.

“Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında” AR-da qəbul edilən qanunların ilk növbədə Konstitusiyaya və AR-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit edilmiş insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldilməsinin zəruriliyi bir daha vurğulanmışdır. Ölkəmizin insan hüquq və azadlıqları ilə, o cümlədən şəxsin toxunulmazlıq hüququnun təmin edilməsi ilə bağlı üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsinə nəzarət mexanizmləri çərçivəsində Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının və digər təşkilatlara insan hüquqlarının təmin olunmasına dair dövri hesabatlar təqdim edir.

Onu da qeyd edək ki, Ədliyyə Akademiyası “Şəxsi və ailə həyatına hörmət hüququ” ilə bağlı hakimlər, məhkəmə aparatı işçiləri, vəkillər, ədliyyə işçiləri, bələdiyyə üzvləri və qulluqçuları və s. dinləyicilər üçün mütəmadi təlimlər təşkil edir. Bütün tədris müəssisələrində digər insan hüquqları və azadlıqları ilə yanaşı toxunulmazlıq hüququ ilə

bağlı mühazirələrə geniş yer ayrılması və bu sahədə güclü təbliğatın aparılması zəruridir. Çünki hal-hazırki informasiya dövründə şəxsi həyatın toxunulmazlığı ilə bağlı məsələlər daha çox təhlükə altındadır və zərərçəkmiş şəxslər bəzən məlumatsızlıqdan baş verən pozuntunun fərqinə varmırlar.